ADAM SİLVERA

# SONDA HƏR İKİSİ ÖLÜR

Tərcüməçi:
Sevil Gültən

*Hər günü daha mənalı yaşamaq üçün kiminsə xatırlatmasına ehtiyac duyanlara həsr edirəm.*

*Daim sevgisini hiss etdiyim anama, bacım Ceciliaya minnətdaram. Həmişə ikinizin də sevgisi gərəyim olub.*

BİRİNCİ HİSSƏ

# Ölüm proqnozu

*Bu dünyada yaşamaq nadir şeydir.*

*İnsanların əksəriyyəti sadəcə mövcud olur, vəssalam!*

*Oskar Vayld*

## 5 sentyabr 2017
## MATEO TORREZ
## gecə saat 24:22

"Ölüm proqnozu" şirkətindən zəng edib nə qədər ömrüm qaldığına dair xəbərdarlıq edirlər: – Mən bu gün öləcəyəm. Yeri gəlmişkən, "xəbərdarlıq etmək" sözü bu mənada çox güclü sözdür, çünki nəyəsə görə xəbərdarlıq edəndə ondan yayınmaq da mümkündür. Məsələn, kimsə küçəni yaşıl işıq yanmazdan qabaq keçmək istəyəndə maşınlar siqnal verir, yəni ona xəbərdarlıq edirlər, həmin adama bir addım geri çəkilməyə, ayıq-sayıq olmağa fürsət verirlər. Xəbərdarlıq – o biri məhəllədə yerləşən kilsə zənginin səsi kimi, otağın o biri tərəfindəki telefondan eşidilir. Artıq həyəcanlanıram, beynimə yüzlərlə fikir gəlir. Paraşütlə ilk dəfə tullanan insan, ilk dəfə konsert verən pianoçu özünü necə hiss edərsə, mən də elə hiss edirəm. Çox güman ki, mən heç vaxt nə paraşütdən tullanacağam, nə də konsert verəcəyəm.

Dəhşətli hisslərdir. Bir dəqiqə bundan qabaq mən *Count-Downers*-in dünənki bloqunu oxuyurdum. Bu bloqda Dekerlər həyatlarının son saatlarını necə, harada keçirdiklərini statuslarla, canlı videolarla paylaşmışdılar. Sonuncu bloqda universitetdə təhsil alan cavan oğlan sarışın retriverini[1] saxlamaq üçün yer axtarırdı.

---

[1] Retriver – ov iti (red.)

Budur, mən də öləcəyəm.

Mən də... Öləcəyəm... Yox. Hə. Hə.

Ürəyim sıxılır. Mən bu gün öləcəyəm.

Həmişə ölümdən qorxmuşam. Heç bilmirəm, mən niyə elə düşünürdüm ki, ölümdən qorxmağım ölümü lənətləyəcək, ölümün baş verməyinə mane olacaq. Əlbəttə, həmişəlik yox, heç olmasa mən böyüyənə qədər. Atam mənə dəfələrlə deyirdi ki, özümü hekayənin əsas qəhrəmanı kimi aparım, çünki hekayə qəhrəmanlarının başına pis iş gəlmir, xüsusilə də ölüm; onlar hər çətinliyin öhdəsindən gəlirlər. Beynimdəki səs-küy tədricən sakitləşir, telefon xəttinin o biri tərəfində "Ölüm proqnozu" şirkətinin işçisi – carçısı 18 yaşımda öləcəyimi mənə xəbər vermək üçün gözləyir.

Dəhşət... Faktiki olaraq, mən...

Telefonu götürmək istəmirəm. Yaxşısı budur, atamın yataq otağına qaçım, xəstəxananın intensiv terapiya şöbəsinə "yerləşmək" üçün vaxtı düz seçmədiyinə görə hirsimi onun balışına töküm, balışını yumruqlayım, divarı yumruqlayım ki, nə üçün anam məni dünyaya gətirərkən həyatdan köçüb, sanki bununla mənim də bu dünyadan erkən köçməyimə işarə verib. Telefon demək olar otuzuncu dəfə zəng çalır, zəngə cavab verməməklə onsuz da bu gün baş verənlərin qarşısını ala bilmərəm.

Dizim üstə qoyduğum laptopumu kənara atır, çarpayıdan düşürəm. Müvazinətimi saxlaya bilmirəm, sanki bu dəqiqə yerə yıxılacağam. Stoluma tərəf zombi kimi, yeriyən ölütək addımlayıram.

Telefonun ekranında heç şübhəsiz "ÖLÜM PROQNOZU" yazılıb.

Qorxudan, həyəcandan bədənim titrəyir, buna baxmayaraq özümü ələ alıb “*yes*” düyməsini sıxıram. Heç nə demirəm. Nə deyəcəyimi bilmirəm. Sadəcə nəfəs alıram, indi mənim ciyərlərimin iyirmi səkkiz min dəfədən az nəfəs almağa gücü var – normal halda gün ərzində insan bu qədər nəfəs alır, nə qədər ki, yaşayıram, nəfəs almalıyam.

– Salam! Mən “Ölüm proqnozu” şirkətindən zəng edirəm. Adım Andreadır. Timoti, məni eşidirsiniz?

Timoti.

– Mənim adım Timoti deyil.

Siz başqa adama zəng etmisiniz, – Andreaya deyirəm.

Hətta Timoti adlı o şəxsə yazığım gəlsə də, həyəcanım azalır, ürəyim sakitləşir. Həqiqətən də, Timotiyə görə məyus oluram.

– Mənim adım Mateodur.

Bu adı mənə atam qoyub, istəyir ki, həmin adı gələcək nəslə ötürüm. Əgər övladım olsa, belə edəcəyəm.

Andrea kompüterdə nəsə yazır, yəqin ki, məlumat bazasında düzəliş edir.

– Ah, üzr istəyirəm. Sizdən qabaq Timoti adlı bir centlmenlə danışırdım. Yazıq kişi, xəbər ona çox pis təsir etdi. Siz Mateo Torrezsiniz, elədir?

Bu sual mənim son ümidimi puç etdi.

– Mateo olduğunuzu təsdiq edin. Bu gecə çox adama zəng etməliyəm.

Həmişə təsəvvür edirdim ki, “Ölüm proqnozu” şirkətindən mənə zəng edən carçı – bu, onların rəsmi adıdır – mənimlə mülayim danışacaq, xəbəri mənə deyərkən həyəcanlanacaq, məni bu xəbərə hazırlayacaq, çünki mən çox cavanam. Düzünü

desəm, o mənimlə şən əhvalda danışsaydı, son günümü necə keçirəcəyimi soruşsaydı, bəlkə də, özümü bu qədər pis hiss etməzdim, çünki onsuz da sonda nə baş verəcəyini bilirdim. Əgər belə olsaydı, yəqin ki, mən evdə oturub heç vaxt sona çatdıra bilməyəcəyim "1000 pazl"a gözlərimi dikməzdim, yaxud masturbasiya ilə məşğul olmazdım (*konkret bir şəxslə sevişmək məni qorxudur*). Təəssüf ki, mənə zəng edən carçı elə danışır, sanki boş yerə onun vaxtını alıram, halbuki məndən fərqli olaraq, indi onun vaxtı çoxdur.

– Yaxşı. Mateo mənəm. Mən Mateoyam, – onun sualına cavab verirəm.

– Mateo, sizə belə üzücü xəbər verməyimə təəssüf edirəm. Bildirmək istəyirəm ki, növbəti 24 saat ərzində siz vaxtsız ölümünüzlə qarşılaşacaqsınız. Sizin ölümünüzü təxirə salmaq üçün heç nə edə bilmərik, bu müddət ərzində yaşamaq fürsətiniz var, – carçı deyir və həyatın necə ədalətsiz olmağı haqda danışır, daha sonra gün ərzində iştirak edə biləcəyim bəzi tədbirlərin siyahısını sadalayır. Gərək mən ona heç hirslənməyəm də, açıq-aşkar görünür ki, eyni sözləri yüzlərlə, bəlkə də minlərlə insana o qədər deyib ki, bu sözlər artıq onun yaddaşına həkk olunub. Xeyli sayda insana necə öləcəyini məlumat verib. Onda mənə qarşı heç bir mərhəmət hissi yoxdur. Kim bilir, bəlkə də, mənimlə danışarkən öz-özüylə tik-tak-toe oyunu oynayır, ya da dırnaqlarını laklayır.

*CountDowners* bloqunda Dekerlər[1] hər şey haqda məlumat yerləşdirmişdilər. "Ölüm proqnozu" şirkətindən xəbərdarlıq zəngi gələndən sonra gün ərzində SON günlərini necə keçirdiklərini statuslarında paylaşmışdılar. *Twitter*-də. Hətta

[1] "Ölüm proqnozu" şirkətinin zəng etdiyi şəxslər belə adlandırılır. (tərc.)